| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 24.01.2014 |
| QEYDİYYAT NÖMRƏSİ | 20 |
| ADI | Azərbaycan Respublikası Energetika Nazirliyinin yaradılması ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişikliklər edilməsi barədə |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 31-01-2014, Nəşr nömrəsi: 20), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-01-2014, Nəşr nömrəsi: 01, Maddə nömrəsi: 69) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 31.01.2014 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 120.120.180 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | 14201401240020 |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 31.01.2014 |

**Azərbaycan Respublikası Energetika Nazirliyinin yaradılması ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasının Energetika Nazirliyinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 22 oktyabr tarixli 3 nömrəli Sərəncamının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Azərenerji" Səhmdar Cəmiyyətinin "Dövlət Enerjinəzarət" İdarəsinin Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyinin birbaşa tabeliyinə verilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 1 fevral tarixli 18 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, 2, maddə 97; 2006, 7, maddə 647) adında və 1-ci hissəsində "Sənaye və Energetika" sözləri "Energetika" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 15 fevral tarixli 26 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, 2, maddə 141; 2005, 6, maddə 558; 2006, 4, maddə 370, 7, maddə 647) ilə təsdiq edilmiş "Ətraf mühitə dair alınması məhdudlaşdırılan informasiya üzrə müraciət və ya sorğunun göndərildiyi dövlət hakimiyyəti orqanlarının Təsnifatı"nın 3-cü hissəsində "Sənaye və Energetika" sözləri "Energetika" sözü ilə əvəz edilsin.

3. "Elektrik enerjisindən istifadəyə görə bir sıra birinci dərəcəli istehlakçıların, məskunlaşmamış qaçqın və məcburi köçkünlərin istehlak etdikləri elektrik enerjisi dəyərinin ödənilməsinin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 10 iyun tarixli 80 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, 6, maddə 348; 2006, 1, maddə 59, 7, maddə 647; 2009, 10, maddə 846 ) 5-ci hissəsinin ikinci abzasında "Sənaye və Energetika" sözləri "Energetika" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 11 avqust tarixli 102 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, 8, maddə 458; 2005, 6, maddə 558; 2006, 4, maddə 370, 7, maddə 647, 9, maddə 822) ilə təsdiq edilmiş "Hidrotexniki qurğuların təhlükəsizlik bəyannaməsinin tərtib olunma Qaydaları və forması"nın 4.7-ci bəndində "Sənaye və Energetika" sözləri "Energetika" sözü ilə əvəz edilsin.

5. "Dövlət və yerli əhəmiyyətli hidrotexniki qurğuların siyahısının, mühafizə rejimi və təhlükəsizliyi üzrə Təsnifatı"nın, "Hidrotexniki qurğuların dövlət reyestrinin tərtib olunması və aparılması Qaydaları"nın və "Mühafizə zonalarının ölçüləri, sərhədləri və istifadəsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 21 avqust tarixli 109 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, 8, maddə 464; 2005, 6, maddə 558; 2006, 4, maddə 370, 7, maddə 647, 9, maddə 822; 2008, 5, maddə 432; 2012, 5, maddə 476; 2013, 6, maddə 736) aşağıdakı dəyişikliklər edilsin:

5.1. həmin qərarla təsdiq edilmiş "Hidrotexniki qurğuların dövlət reyestrinin tərtib olunması və aparılması Qaydaları"nın 12-ci, 13-cü, 18-ci və 20-ci hissələrində "Sənaye və Energetika" sözləri "Energetika" sözü ilə əvəz edilsin;

5.2. həmin qərarla təsdiq edilmiş "Mühafizə zonalarının ölçüləri, sərhədləri və istifadəsi Qaydaları"nın 5-ci, 7-ci və 11-ci hissələrində "Sənaye və Energetika" sözləri "Energetika" sözü ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 22 sentyabr tarixli 120 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, 9, maddə 528; 2006, 7, maddə 647) ilə təsdiq edilmiş "Ekoloji təhsil və maarifləndirmə üzrə Sahələrarası Komissiyanın Tərkibi"nin "Komissiyanın üzvləri" hissəsində "Sənaye və Energetika" sözləri "Energetika" sözü ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 oktyabr tarixli 149 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, 10, maddə 866; 2006, 3, maddə 303, 5, maddələr 463, 468, 8, maddə 731, 9, maddə 822, 11, maddə 994; 2007, 1, maddə 50, 10, maddə 1021, 12, maddələr 1343, 1352; 2008, 2, maddə 130, 4, maddə 308, 10, maddə 936; 2009, 1, maddələr 22, 32, 2, maddələr 144, 150, 9, maddələr 736, 753; 2010, 4, maddə 369, 11, maddə 1048; 2011, 1, maddə 66, 4, maddə 365; 2012, 9, maddə 934; 2013, 8, maddə 1000, 10, maddə 1202) ilə təsdiq edilmiş 4 nömrəli əlavə — "Büdcə xərclərinin inzibati təsnifatı"nın "İcra hakimiyyəti orqanları" hissəsində "Sənaye və Energetika" sözləri "Energetika" sözü ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 2 noyabr tarixli 167 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, 11, maddə 957; 2006, 7, maddə 647, 9, maddə 822; 2008, 5, maddə 432, 8, maddə 786; 2013, 6, maddə 737) ilə təsdiq edilmiş «İstismar olunan ixrac neft boru kəmərlərinin "Mühafizə Zonası"nın müəyyənləşdirilməsi Qaydaları"nın 6.1-ci və 6.2-ci bəndlərində "Sənaye və Energetika" sözləri "Energetika" sözü ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 2, maddə 121; 2006, 1, maddə 59; 2009, 1, maddə 32, 10, maddə 846; 2010, 1, maddə 49; 2012, 2, maddə 183; 2013, 6, maddə 738) ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları"nın 1.6-cı, 6.1-ci bəndlərində, 11.15-ci bəndinin birinci abzasında, 11.19-cu bəndində, 12.1-ci bəndinin birinci, üçüncü və dördüncü abzaslarında, 12.16-cı və 12.18-ci bəndlərində "Sənaye və Energetika" sözləri "Energetika" sözü ilə əvəz edilsin.

10. "İri dövlət vergi ödəyicilərinin gəlirlər və xərclər smetaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 9 iyun tarixli 102 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 6, maddə 538; 2009, 9, maddə 757; 2010, 4, maddə 371; 2012, 2, maddə 190) aşağıdakı dəyişikliklər edilsin:

10.1. 4-cü (hər iki halda), 4-1-ci və 7-ci hissələrdə "Sənaye və Energetika" sözləri "Energetika" sözü ilə əvəz edilsin;

10.2. həmin qərarla təsdiq edilmiş "İri dövlət vergi ödəyicilərinin gəlirlər və xərclər smetalarının icrası üzrə monitorinqin aparılması Qaydaları"nın 2.1-ci və 3.2-ci bəndlərində "Sənaye və Energetika" sözləri "Energetika" sözü ilə əvəz edilsin.

11. "Gərginliyi 1000 voltadək olan elektrik şəbəkələrinin mühafizəsi Qaydaları"nın və "Gərginliyi 1000 voltdan yuxarı olan elektrik şəbəkələrinin mühafizəsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 10 iyun tarixli 103 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 6,

maddə 539; 2006, 9, maddə 822; 2008, 2, maddə 116, 5, maddə 432) aşağıdakı dəyişikliklər edilsin:

11.1. həmin qərarla təsdiq edilmiş "Gərginliyi 1000 voltadək olan elektrik şəbəkələrinin mühafizəsi Qaydaları"nın 3-cü hissəsinin b) bəndində, 9-cu hissəsinin ikinci abzasında və 21-ci hissəsində "Sənaye və Energetika" sözləri "Energetika" sözü ilə əvəz edilsin;

11.2. həmin qərarla təsdiq edilmiş "Gərginliyi 1000 voltdan yuxarı olan elektrik şəbəkələrinin mühafizəsi Qaydaları"nın 9-cu, 32-ci hissələrində və 13-cü hissəsinin ikinci abzasında "Sənaye və Energetika" sözləri "Energetika" sözü ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 14 dekabr tarixli 229 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 12, maddə 1229; 2009, 10, maddə 846; 2010, 11, maddə 1039; 2013, 6, maddə 762) ilə təsdiq edilmiş "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"nin 8.2-ci bəndində "Sənaye və Energetika" sözləri "Energetika" sözü ilə əvəz edilsin.

13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 dekabr tarixli 230 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 12, maddə 1230; 2006, 9, maddə 822, 11, maddə 1000; 2007, 4, maddə 387, 10, maddə 1021, 12, maddə 1337; 2009, 2, maddə 144; 2010, 6, maddə 558; 2012, 9, maddə 925) ilə təsdiq edilmiş "İxrac nəzarətinə düşən malların nomenklaturuna uyğun, habelə işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin qanunvericiliklə müəyyən edilmiş siyahısındakı malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) kateqoriyaları və bölmələri üzrə xüsusi icazə verən, ixrac nəzarətini, xüsusi icazə verilməsindən əvvəl və sonra yoxlamaları, ikili təyinatlı malların sifariş edilmiş məqsədlər üçün istifadə olunmasına nəzarəti həyata keçirən icra hakimiyyəti orqanlarının Siyahısı"nda "Sənaye və Energetika" sözləri "Energetika" sözü ilə əvəz edilsin.

14. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına və sərəncamlarına dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 22 iyul tarixli 180 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, 7, maddə 647) 2-ci hissəsində "Sənaye və Energetika" sözləri "Energetika" sözü ilə əvəz edilsin.

15. "Azərbaycan Respublikasında bəzi fəaliyyət növləri üzrə ixracın stimullaşdırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 26 iyul tarixli 185 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, 7, maddə 652; 2007, 11, maddə 1187) aşağıdakı dəyişikliklər edilsin:

15.1. 4-cü hissədə "Sənaye və Energetika" sözləri "Energetika" sözü ilə əvəz edilsin;

15.2. həmin qərarla təsdiq edilmiş "İxrac məqsədli neft-qaz fəaliyyəti üzrə idxal əməliyyatlarında güzəştlərin verilməsi Qaydaları"nın 8-ci hissəsində "Sənaye və Energetika" sözləri "Energetika" sözü ilə əvəz edilsin.

16. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 18 iyun tarixli 98 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 6, maddə 703) ilə təsdiq edilmiş "Cənubi Xəzər çökəkliyinin Azərbaycan hissəsinin karbohidrogen potensialının və geodinamikasının öyrənilməsinə dair 2007-2014-cü illər üçün Tədbirlər Proqramı"nın "4. Tədbirlər Proqramının həyata keçirilməsi Planı" hissəsinin 3.27-ci bəndində "SEN" abreviaturası "EN" abreviaturası ilə və "Akronimlər" hissəsində "SEN — Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi" sözləri "EN — Azərbaycan Respublikasının Energetika Nazirliyi" sözləri ilə əvəz edilsin.

17. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 8, maddə 861, 9, maddə 923, 10, maddə 1021, 12, maddə 1331; 2009, 1, maddələr 22, 32, 2, maddə 150, 4, maddələr 282, 293, 8, maddələr 674, 675, 680, 10, maddələr 846, 852, 856; 2010, 2, maddələr 146, 161, 11, maddə 1040; 2011, 1, maddə 54, 5, maddə 447, 9, maddə 855; 2012, 5, maddə 475, 8, maddə 817, 10, maddə 1028, 11, maddə 1204, 12, maddələr 1363, 1388; 2013, 1, maddə 73, 8, maddələr 1015, 1038, 10, maddə 1219) ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nın II bölməsinin 16-cı hissəsində və 16.1-ci bəndində "Sənaye və Energetika" sözləri "Energetika" sözü ilə əvəz edilsin.

18. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 17 sentyabr tarixli 138 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2007, 9, maddə 915; 2009, 12, maddə 1065) ilə təsdiq edilmiş "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və "Bakıelektrikşəbəkə" Açıq Səhmdar Cəmiyyəti arasında Elektrik enerjisinin satınalınma Müqaviləsi"nın "1. Anlayışlar" hissəsinin on yeddinci abzasında, 13.1-ci, 13.2-ci, 13.3-cü (hər iki halda) bəndlərində, "15. Zərərin ödənilməsi" hissəsində, 17.1.1-ci, 17.2.3-cü, 17.2.5-ci, 17.3.1-ci və 17.4.4-cü yarımbəndlərində "Sənaye və Energetika" sözləri "Energetika" sözü ilə əvəz edilsin.

19. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, 12, maddə 1115; 2009, 2, maddə 153, 4, maddə 282, 7, maddə 605, 8, maddələr 674, 680, 10, maddələr 846, 852, 856; 2010, 1, maddə 60, 2, maddələr 146, 161, 10, maddələr 906, 912, 11, maddə 1040; 2011, 1, maddə 66, 5, maddə 446, 9, maddələr 856, 862; 2012, 5, maddə 479, 8, maddə 818, 10, maddə 1027, 11, maddə 1205; 2013, 1, maddə 74, 8, maddələr 1014, 1037) ilə təsdiq edilmiş "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları"nda (hər iki halda) "Sənaye və Energetika" sözləri "Energetika" sözü ilə əvəz edilsin.

20. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 10 iyul tarixli 106 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, 7, maddə 603) ilə təsdiq edilmiş "Maddi sərvətlərin səfərbərlik və dövlət ehtiyatlarının, habelə ərzaq mallarının və neft məhsullarının azaldılmaz ehtiyatlarının yaradılması, yığılması, saxlanılması, təzələnməsi və istifadə olunması Qaydaları"nın 2.4-cü bəndində "Sənaye və Energetika" sözləri "Energetika" sözü ilə əvəz edilsin.

21. "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi ilə bağlı bəzi normativ hüquqi sənədlərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 6 noyabr tarixli 174 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, 11, maddə 935; 2012, 9, maddə 930) aşağıdakı dəyişikliklər edilsin:

21.1. həmin qərarla təsdiq edilmiş "Xüsusi iqtisadi rejimdən istifadə üçün şəhadətnamənin alınması məqsədi ilə podratçı (subpodratçı) tərəfindən təqdim edilən ərizənin forması"nın mətnində "Sənaye və Energetika" sözləri "Energetika" sözü ilə əvəz edilsin;

21.2. həmin qərarla təsdiq edilmiş "Xüsusi iqtisadi rejimdən istifadə üçün şəhadətnamənin alınması məqsədi ilə

podratçı (subpodratçı) tərəfindən təqdim edilən sənədlərin araşdırılması üçün ekspertin (mütəxəssisin) təyin edilməsi və ekspertizanın aparılması Qaydaları“nın 2-ci-4-cü hissələrində “Sənaye və Energetika“ sözləri “Energetika“ sözü ilə əvəz edilsin;

21.3. həmin qərarla təsdiq edilmiş “İxrac məqsədli neft-qaz fəaliyyəti üçün podratçılara və subpodratçılara xüsusi iqtisadi rejimin tətbiqi haqqında Şəhadətnamənin forması“nın mətnində “Sənaye və Energetika“ sözləri “Energetika“ sözü ilə əvəz edilsin;

21.4. həmin qərarla təsdiq edilmiş “İxrac məqsədli neft-qaz fəaliyyətinin həyata keçirilməsi ilə bağlı podratçılara və subpodratçılara xüsusi iqtisadi rejimin tətbiqi haqqında şəhadətnamənin verilməsi, müddətinin uzadılması və ləğv edilməsi Qaydaları“nın 1.2-ci, 1.3-cü, 2.1-ci, 2.4-cü, 2.14-cü-2.17-ci, 3.1-ci, 4.1-ci, 4.3-cü, 5.1-ci və 5.3-cü bəndlərində “Sənaye və Energetika“ sözləri “Energetika“ sözü ilə əvəz edilsin.

22. “Azərbaycan Respublikasının ərazisində dövriyyəyə buraxılan (idxal və Azərbaycan Respublikasında istehsal edilən) avtonəqliyyat vasitələrindən atmosfer havasına atılan zərərli maddələrə dair tələblərin Avropa standartlarına uyğunlaşdırılması tədbirləri barədə“ Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 mart tarixli 45 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010,   3, maddə 256) 3-cü hissəsində “Sənaye və Energetika“ sözləri “Energetika“ sözü ilə əvəz edilsin.

23. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011,   5, maddə 452; 2012,   2, maddə 184; 2013,   6, maddə 744) ilə təsdiq edilmiş “Qazdan istifadə Qaydaları“nda aşağıdakı dəyişikliklər edilsin:

23.1. 1.6-cı bənddə “Sənaye və Energetika“ sözləri “Energetika“ sözü ilə əvəz edilsin;

23.2. 1.6-cı, 2.2-ci, 2.4-cü, 2.7-ci və 4.10-cu bəndlərdə “SEN“ abreviaturası “EN“ abreviaturası ilə əvəz edilsin;

23.3. həmin Qaydalara 2 nömrəli əlavə — “Qaz paylayıcısı ilə fiziki şəxs olan istehlakçı arasında qazın alqı-satqısı barədə Müqavilə“nin 2.3.5-ci və 2.4.4-cü yarımbəndlərində “Sənaye və Energetika“ sözləri “Energetika“ sözü ilə əvəz edilsin;

23.4. həmin Qaydalara 3 nömrəli əlavə — “Qaz paylayıcısı ilə sənaye qaz qurğusundan istifadə edən istehlakçı arasında qazın alqı-satqısı barədə Müqavilə“nin 2.3.6-cı və 2.4.5-ci yarımbəndlərində “Sənaye və Energetika“ sözləri “Energetika“ sözü ilə əvəz edilsin.

24. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011,   7, maddə 747; 2012,   8, maddələr 827, 830; 2013,   3, maddə 347,   7, maddə 886,   8, maddə 1017,   10, maddə 1218; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 10 yanvar tarixli 1 nömrəli qərarı) ilə təsdiq edilmiş 2 nömrəli əlavə — “Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, milli təhlükəsizlik, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti) “nin 11-ci hissəsinin “Orqanın adı“ sütununda “Sənaye və Energetika“ sözləri “Energetika“ sözü ilə əvəz edilsin.

25. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011,   11, maddə 1072,   12, maddə 1247; 2012,   1, maddə 40,   3, maddə 256,   10, maddə 1016,   11, maddə 1207; 2013,   6, maddələr 745, 757,   7, maddə 868,   8, maddələr 1005, 1018; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 29 noyabr tarixli 332 nömrəli və 25 dekabr tarixli 349 nömrəli qərarları) ilə təsdiq edilmiş “Elektron xidmət növlərinin Siyahısı“nın 8-ci hissəsində və 8.3-cü bəndində “Sənaye və Energetika“ sözləri “Energetika“ sözü ilə əvəz edilsin.

26. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 27 avqust tarixli 234 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013,   8, maddə 1032) ilə təsdiq edilmiş “İstehlakçıların elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin verilməsi və enerji təchizatı şəbəkəsinə qoşulması Qaydaları“nda aşağıdakı dəyişikliklər edilsin:

26.1. 3.3.1-ci yarımbənddə “Sənaye və Energetika“ sözləri “Energetika“ sözü ilə əvəz edilsin;

26.2. həmin Qaydalara 1 nömrəli əlavə — “İstehlakçıların elektrik enerjisi (gücü) alması üçün Texniki Şərtlər“in mətnində “Sənaye və Energetika“ sözləri “Energetika“ sözü ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının Baş naziri   Artur Rasi-zadə**

Bakı şəhəri, 24 yanvar 2014-cü il
20